# *ENOC-un sədri:* "Uşaq hüquqları ilə bağlı qanunlar əlçatan, başadüşülən və proqnozlaşdırılan olmalıdır"

*"Avropa Uşaq Ombudsmanları Şəbəkəsi (ENOC) 1997-ci ildə yaradılıb. 34 dövlətdən 44 ENOC üzvüdür ki, onlardan 20-dən çoxu Avropa İttifaqı dövlətlərinin təşkilatlarıdır. Ümumilikdə isə şəbəkənin üzvləri uşaq ombudsmanları, ombudsmanlar, insan hüquqlarını müdafiə edən qurumların nümayəndələridir. ENOC öz fəaliyyətini BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına əsasən qurur. Azərbaycan Ombudsman təsisatının ENOC-un tam üzvü seçilməsi Azərbaycanda uşaq hüquqlarının müdafiəsinə də öz töhfəsini verəcək".*

AZƏRTAC xəbər verir ki, bu barədə "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" keçirilən beynəlxalq konfransı çərçivəsində təşkil olunan "Konstitusion prinsiplər: Qanunun aliliyinə aparan yol" adlı paneldə ENOC-un sədri, Moldovanın Uşaq hüquqları üzrə xalq vəkili Vasile Koroy deyib.

O bildirib ki, uşaq hüquqları ilə bağlı qanunlar əlçatan, başadüşülən və proqnozlaşdırılan olmalıdır ki, həmin qanunlardan uşaqlar bəhrələnə bilsinlər. "Qanunun aliliyi gənc vətəndaşlar olmadan mövcud ola bilməz. Uşaqlar da qərar qəbul etməyə təsir göstərə bilməli, onların yaşı, yetkinliyi nəzərə alınmalıdır. Bir çox ölkədə uşaq hüquqları iştirakçılıqda da nəzərə alınıb. Biz uşaq hüquqlarının müdafiəsi üçün öz işimizi davam etdirir, bu sahədə islahatların yerinə yetirilməsinə nəzarət edirik", - deyə V.Koroy bildirib.

Azərbaycan.- 2025.- 13 noyabr (№241).- S.6.